IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 24. Issue 02. Noyabr ,2026

"BƏDİİ ƏDƏBİYYATDA MULTİKULTURALİZM: MÜASİR AZƏRBAYCAN NÜMUNƏSİNDƏ DƏYƏRLƏRİN TƏCƏSSÜMÜ"

Gunel Hummatova (Paniyeva) Saleh
Azerbaijan State Pedagogical University,
Senior Lecturer of the Department of Literature
Teaching Technology, PhD in Philology
Mail: gunelpeniyeva@mail.ru
Orcid ID: 0000-0002-8916-3484
https://doi.org/10.5281/zenodo.24161217

Abstrakt

Tədqiqat işinin ikinci fəsli müasir Azərbaycan ədəbiyyatında multikultural dəyərlərin bədii təcəssümü və ideya-estetik xüsusiyyətlərinin araşdırılmasına həsr olunmuşdur. Fəsildə milli-mənəvi dəyərlərin qorunması ilə ümumbəşəri humanist düşüncənin qarşılıqlı əlaqəsi, milli kimlik, tarixi yaddaş, mədəni mənsubiyyət və mənəvi azadlıq kimi məsələlərin bədii əsərlərdəki inkişaf istiqamətləri təhlil olunur. Qurban Səidin "Əli və Nino" romanı, Anarın "Gecə düşüncələri" essesi, eləcə də milli poeziyada (məsələn, Ə. Salahzadənin yaradıcılığında) multikulturalizmin təzahür formaları nəzərdən keçirilir. Araşdırma göstərir ki, müasir ədəbiyyatda multikultural düşüncə yalnız mədəni rəngarəngliyin təsviri ilə məhdudlaşmır, həm də fərdin başqa mədəniyyətlərlə qarşılaşması zamanı yaranan mənəvi ziddiyyətləri, hibrid identikliyi və mədəniyyətlərarası dialoq proseslərini əhatə edir.

Açar sözlər

Müasir Azərbaycan ədəbiyyatı, multikultural dəyərlər, bədii təcəssüm, milli kimlik, tolerantlıq, mədəniyyətlərarası dialoq, hibrid identiklik.

GİRİŞ

Müasir dünyada xalqlar və mədəniyyətlər arasında əlaqələrin genişlənməsi milli-mənəvi dəyərlərin qorunması ilə yanaşı, fərqli mədəniyyətlərə hörmət, qarşılıqlı anlaşma və tolerant münasibət məsələlərini də aktuallaşdırır. Qloballaşma şəraitində müxtəlif etnik, dini və dil mənsubiyyətlərinin qarşılıqlı münasibətləri yalnız ictimai-siyasi hadisə kimi deyil, həm də mədəniyyət, ədəbiyyat və təhsilin ortaq problemi kimi diqqəti cəlb edir. Bu baxımdan bədii ədəbiyyatın multikultural dəyərlərin formalaşmasındakı rolu xüsusi əhəmiyyət daşıyır. Ədəbiyyat insanın mənəvi dünyasını, müxtəlif mədəniyyətlərə münasibətini, ictimai davranışını və tarixi yaddaşını əks etdirməklə yanaşı, oxucunun fərqli həyat təcrübələrini anlamasına da imkan yaradır.

Azərbaycan ədəbiyyatında humanizm, milli və dini mənsubiyyətindən asılı olmayaraq insana hörmət, mənəvi bərabərlik və müxtəlif xalqların qarşılıqlı münasibətləri zəngin tarixi ənənəyə malikdir. Klassik ədəbiyyatda formalaşmış bu ideyalar sonrakı dövrlərdə yeni ictimai-mədəni məzmun qazanaraq müasir ədəbi prosesin də mühüm mövzularından birinə çevrilmişdir. Tədqiqatın əsas məqsədi müasir Azərbaycan ədəbiyyatında multikultural dəyərlərin bədii ifadə xüsusiyyətlərini araşdırmaq, həmçinin həmin dəyərlərin tədris prosesi vasitəsilə mənimsədilməsinin pedaqoji-metodik imkanlarını müəyyənləşdirməkdir.

METODLAR

Tədqiqatın qarşıya qoyduğu məqsəd və vəzifələrin həyata keçirilməsində elmi-nəzəri ümumiləşdirmə və sistemli təhlil prinsiplərinə üstünlük verilmişdir. Araşdırma prosesində aşağıdakı elmi tədqiqat metodlarından istifadə olunmuşdur:

1. Tarixi-müqayisəli və təsviri-analitik metodlar: Multikulturalizmin nəzəri-konseptual əsaslarının, Azərbaycan ədəbiyyatındakı tarixi-mədəni qaynaqlarının və müasir bədii əsərlərdə tolerantlıq prinsiplərinin təqdimat xüsusiyyətlərinin təhlili üçün tətbiq edilmişdir.

2. Müqayisəli-tipoloji metod: Müxtəlif müəlliflərin yaradıcılığında (məsələn, Qurban Səid, Anar, Çingiz Abdullayev və b.) milli kimlik, hibrid identiklik və mədəniyyətlərarası dialoq məsələlərinin ortaq və fərqli cəhətlərini üzə çıxarmağa imkan vermişdir.

3. Hermenevtik və pedaqoji təhlil metodları: Bədii mətnlərin dərindən interpretasiyası, həmçinin multikultural yönümlü tədris metodlarının, interaktiv öyrənmə formalarının (problemli müzakirə, debat, qrup işi) və metodik modellərin əsaslandırılması məqsədilə istifadə olunmuşdur.

Nəticələr

"Müasir Azərbaycan ədəbiyyatının tədrisi və multikultural dəyərlər" mövzusunda aparılmış tədqiqat göstərir ki, multikultural düşüncə milli ədəbiyyatımızın tarixi kökləri ilə sıx bağlıdır və müasir təhsil prosesinə inteqrasiyası üçün zəngin imkanlar mövcuddur. Aparılan araşdırmanın əsas nəticələri aşağıdakılardan ibarətdir:

1. Azərbaycan ədəbiyyatında multikulturalizmin əsasını humanizm, mənəvi bərabərlik, dini tolerantlıq və insana milli-mənəvi mənsubiyyətindən asılı olmayaraq dəyər verilməsi prinsipləri təşkil edir. Klassik ənənələr müasir dövrdə milli kimlıq, mədəni yaddaş və fərdi özünüdərk problemləri ilə zənginləşmişdir.

2. Qurban Səidin "Əli və Nino" romanı, Anarın esseləri və digər ədəbi nümunələr Şərq və Qərb dünyagörüşlərinin qarşılaşmasını, mədəniyyətlərarası dialoqu, həmçinin hibrid identikliyin doğurduğu daxili psixoloji ziddiyyətləri bədii müstəvidə dolğun şəkildə əks etdirir.

3. Multikultural məzmunlu bədii əsərlərin tədrisi öyrənənlərdə milli-mənəvi irsə bağlılığı gücləndirməklə yanaşı, tənqidi düşünmə, empatiya və mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişafına güclü təsir göstərir.

4. Ədəbiyyat dərslərində problemli müzakirə, debat və qrup işi kimi interaktiv metodların tətbiqi öyrənənlərin fərqli mənəvi mövqeləri müqayisə etməsinə və dialoq mədəniyyətinə yiyələnməsinə şərait yaradır.

Müasir Azərbaycan ədəbi prosesində multikultural münasibətlərin bədii ifadəsini müəyyənləşdirmək üçün Qurban Səidin "Əli və Nino" romanı diqqətəlayiq nümunələrdən biridir. Əsərin əsas ideya xətlərindən biri fərqli dini-mədəni ənənələrə mənsub iki insanın münasibətləri fonunda Şərq və Qərb dünyagörüşlərinin qarşılaşmasıdır. Əli və Nino obrazlarının mənəvi xüsusiyyətləri yalnız onların fərdi xarakterləri ilə müəyyənləşmir; hər iki personajın yetişdiyi mədəni mühit, ailə ənənələri və ictimai təsəvvürlər də münasibətlərinin inkişafına təsir göstərir.

Əsərin multikultural məzmunu baxımından burada mühüm olan məsələ fərqli mədəni mənsubiyyətlərin qarşılıqlı münasibətdə təqdim edilməsidir. Əli milli və dini ənənələrə bağlılığını qoruyarkən, Nino başqa mədəni mühitin dəyərlərini təmsil edir. Onların münasibətində sevgi şəxsi hiss olmaqla yanaşı, müxtəlif mədəni təsəvvürlər arasında anlaşma imkanının da ifadəsinə çevrilir.

Müasir Azərbaycan ədəbi düşüncəsində milli və ümumbəşəri dəyərlərin qarşılıqlı əlaqəsi Anarın yaradıcılığında da fərqli məzmun qazanır. Xüsusilə yazıçının "Gecə düşüncələri"

essesində Şərq və Qərb həyat tərzinə münasibət, milli-mədəni özünəməxsusluq və fərqli mədəni təcrübələrin müqayisəsi məsələləri diqqəti cəlb edir. N. Məmmədxanova bu əsərə münasibət bildirərkən qeyd edir ki, *"Anar "Gecə düşüncələri" essesində "Qərb-Şərq həyat tərzinin yeni bədii qavranmasını vermişdir"* [9, s. 12]. Şərq və Qərb anlayışları burada sadəcə coğrafi məkanları ifadə etmir; onlar fərqli həyat tərzlərinin, sosial münasibətlərin və mənəvi təsəvvürlərin müqayisəsinə imkan verən mədəni kateqoriyalar kimi çıxış edir. Müasir Azərbaycan ədəbiyyatının ideya-estetik inkişafında milli-mənəvi dəyərlərin qorunması ilə ümumbəşəri humanist düşüncənin qarşılıqlı əlaqəsi mühüm yer tutur. Ədəbi prosesin müxtəlif mərhələlərində milli kimlik, tarixi yaddaş, mədəni mənsubiyyət, mənəvi azadlıq və insanın cəmiyyət qarşısında məsuliyyəti kimi məsələlər yeni bədii məzmun qazanmışdır. Xüsusilə XX əsrin ikinci yarısından etibarən ictimai münasibətlərdə baş verən dəyişikliklər, fərdin mənəvi dünyasına marağın artması və yeni estetik axtarışlar Azərbaycan ədəbiyyatında milli və ümumbəşəri dəyərlərin daha mürəkkəb münasibətlər daxilində təqdim edilməsinə imkan yaratmışdır.Bu baxımdan müasir ədəbiyyatda multikultural düşüncə yalnız müxtəlif xalqların və dini mənsubiyyətlərin təsviri ilə məhdudlaşmır. O, həmçinin insanın başqa mədəniyyətlərə münasibətində, milli özünüdərkində, mənəvi seçimlərində və fərqli dünyagörüşlərlə qarşılaşması zamanı meydana çıxan ziddiyyətlərdə təzahür edir. Milli dəyərlər insanın mənsub olduğu mədəni mühitin tarixi yaddaşını və mənəvi xüsusiyyətlərini ifadə etdiyi halda, ümumbəşəri dəyərlər həmin mühitin başqa mədəniyyətlərlə münasibətini müəyyənləşdirən əxlaqi prinsiplər kimi çıxış edir.N.Məmmədxanova "Multikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri" adlı məqaləsində bu münasibətin müasir ədəbiyyatdakı təzahürlərini araşdıraraq qeyd edir: *"Bu gün multikultural problemlə bağlı ədəbiyyat vahid hərəkat, istiqamət, hətta müəlliflər qruplarından ibarət deyil"* [9, s. 9]. Bu müddəa multikulturalizmin ayrıca ədəbi cərəyan kimi deyil, müxtəlif estetik sistemlər daxilində meydana çıxan ideya-məzmun xüsusiyyəti kimi öyrənilməsinin zəruriliyini göstərir.Milli və ümumbəşəri dəyərlərin qarşılıqlı münasibəti poeziyada da mühüm yer tutur. Klassik ədəbiyyatda humanizm və bəşəri məhəbbət şəklində ifadə edilən mənəvi düşüncə XX əsr poeziyasında daha konkret ictimai-sosial məzmun qazanmışdır. Başqa xalqların yaşadığı faciələrə münasibət, sosial ədalətsizliyin tənqidi və insan ləyaqətinin müdafiəsi bu inkişafın diqqətəlayiq istiqamətlərindəndir.

A.Hüseynova klassik ədəbi ənənələrdəki multikultural düşüncənin sonrakı poeziyada əksini araşdırarkən Ə.Salahzadənin "Afrika, Afrika" şeirinə müraciət edir. Şeirdə Afrika xalqlarının tarixi taleyi və istismarı poetik təsvirin əsasını təşkil edir: *"Tarixin ən ədalətsiz davranışları ilə üz-üzə qalan, muncuqla... aldadılıb fil dişi, qızılı daşınan ölkə"* [7, s. 83]. Şairin Afrika xalqlarının taleyinə münasibəti humanizmin yalnız öz xalqına və ya mədəniyyətinə bağlılıqla məhdudlaşmadığını göstərir. Burada ümumbəşəri dəyərlər ədalətsizliyə qarşı mənəvi mövqe şəklində meydana çıxır.Müasir Azərbaycan ədəbiyyatının multikultural xüsusiyyətlərinin müəyyənləşdirilməsində milli kimliyin qorunması ilə başqa mədəniyyətlərə açıq münasibət arasındakı əlaqə mühüm əhəmiyyət kəsb edir. Bu iki istiqaməti bir-birinə qarşı qoymaq doğru olmazdı. Milli-mənəvi irsə bağlılıq fərqli mədəniyyətlərin dəyərlərinin inkarını tələb etmədiyi kimi, başqa mədəni təcrübələrin mənimsənilməsi də milli özünəməxsusluğun itirilməsi ilə eyniləşdirilməməlidir.G. Nadirova *"milli kimlik, hibrid identiklik və mədəniyyətlərarası münasibətləri müasir ədəbiyyatın aktual problemləri"* sırasında araşdırır [11 s. 3-6]. Buna görə də multikulturalizmin ədəbi təzahürləri yalnız müsbət mədəni münasibətlər əsasında deyil, həmin münasibətlərin doğurduğu mürəkkəb mənəvi problemlər kontekstində də qiymətləndirilməlidir.N. Məmmədxanova Çingiz Abdullayevin yaradıcılığını bu baxımdan səciyyələndirərkən qeyd edir: *"Onun romanlarının əksəriyyətində Qərb mədəniyyətinin elə parametrləri verilmişdir ki, bu Rusiya dövlətçiliyinin hüquqi normalarına müəyyən oxşarlıq yaradır"* [9, s. 12]. Müəllifin bu müşahidəsi siyasi-detektiv janrında mədəniyyətlərarası münasibətlərin fərqli ictimai sistemlərin müqayisəsi şəklində təqdim oluna bildiyini göstərir. Belə əsərlərdə müxtəlif mədəni mühitlərə

məxsus davranış prinsipləri hadisələrin inkişafına təsir edən amillərdən birinə çevrilir.Multikultural mühitin fərdin mənəvi dünyasına təsiri müasir nəsrdə özünü daha mürəkkəb formada göstərə bilər. Bəzən başqa mədəniyyətlə qarşılaşma insanın dünyagörüşünü genişləndirdiyi halda, başqa hallarda mənəvi yadlaşmaya, milli kimliklə bağlı tərəddüdlərə və daxili ziddiyyətlərə səbəb olur. Bu baxımdan multikulturalizm yalnız qarşılıqlı anlaşmanın müsbət nümunələri ilə deyil, həm də mədəni təmasların yaratdığı psixoloji problemlərlə əlaqədə araşdırılmalıdır. G.Nadirovanın tədqiqatında da miqrasiya, milli kimlik və hibrid identiklik kimi problemlər müasir ədəbiyyatın multikultural xüsusiyyətləri ilə əlaqələndirilir. Müəllifin gəldiyi nəticələrdən biri budur ki, *"fərqli mədəni mühitdə fəaliyyət göstərən yazıçıların yaradıcılığında mənəvi mənsubiyyət və özünüdərk məsələləri xüsusi əhəmiyyət qazanır"* [11, s. 24]. Bədii personajın başqa mədəniyyətlə qarşılaşması onun yalnız xarici davranışında deyil, həm də mənəvi münasibətlərində özünü göstərə bilər. Belə qarşılaşmanın mahiyyəti isə əsərin süjet və kompozisiya quruluşundan, personajın psixoloji inkişafından və müəllifin estetik mövqeyindən asılı olaraq dəyişir.Müasir nəsrin multikultural məzmununun təhlilində tolerantlıq anlayışının da düzgün müəyyənləşdirilməsi vacibdir. Tolerantlıq anlayışı klassik çərçivələri aşaraq yalnız başqa mədəniyyətin nümayəndəsinə qarşı nümayiş etdirilən səthi müsbət münasibətlə məhdudlaşdırılmamalıdır. Bədii əsərin estetik müstəvisində fərqli dünyagörüşlərinin gerçəkliyinin qəbul edilməsi, hər bir fərdin mənəvi seçiminə dərin hörmət bəslənilməsi və cəmiyyətdə kök salmış müəyyən stereotiplərin tənqidi şəkildə ifşa olunması da məhz tolerantlığın ideya-estetik ifadəsinə xidmət edən mühüm amillərdəndir.

Mədəni kimliyin bədii əksində diqqəti cəlb edən ən əsas məsələlərdən biri fərdin öz milli-mənəvi köklərini və mənsubiyyətini qorumaqla yanaşı, başqa mədəniyyətlərə obyektiv və açıq münasibət bildirməsi bacarığıdır. Lakin bu proses birtərəfli deyil: fərqli dünyagörüşlərin və dəyərlər sisteminin toqquşması bəzən dərin qarşılıqlı anlaşmaya, bəzi hallarda isə mənəvi ziddiyyətlərin və dramatizmin qabarmasına səbəb olur. Məhz buna görə də multikulturalizmin ədəbiyyatdakı təzahür formalarını yalnız barışdırıcı və müsbət tolerant münasibətlər çərçivəsində qiymətləndirmək kifayət etmir. Mədəni fərqliliklərin doğurduğu daxili psixoloji qarşıdurmalar, yadlaşma sindromu, milli özünüdərk böhranı və fərdi seçim azadlığı kimi mürəkkəb sosial-fəlsəfi problemlər də təhlil zamanı mütləq diqqət mərkəzində saxlanılmalıdır.

Əlavə olaraq, müasir bədii mətnlərdə bu ziddiyyətlər təkcə obrazların xarici davranışlarında deyil, həm də onların daxili monoloqlarında, psixoloji gərginliklərində və özünüdərk axtarışlarında öz əksini tapır ki, bu da multikulturalizmin ədəbi-estetik sərhədlərini daha da genişləndirir.

Nəticə

Müasir Azərbaycan ədəbiyyatında multikultural dəyərlərin bədii təcəssümünün təhlili göstərir ki, milli ədəbiyyatımız qədim humanizm ənənələrinə əsaslanmaqla yanaşı, qloballaşan dünyanın aktual mədəni-mənəvi problemlərini də uğurla əks etdirir. Fəslin ümumiləşdirilmiş nəticələri aşağıdakılardan ibarətdir:

1. Müasir Azərbaycan ədəbiyyatında multikulturalizm təcrid olunmuş hadisə kimi deyil, milli kimliyin qorunması ilə ümumbəşəri humanist prinsiplərin qarşılıqlı əlaqəsində çıxış edir.
2. Qurban Səidin "Əli və Nino" romanı kimi əsərlərdə fərqli dini-mədəni ənənələrin və dünyagörüşlərinin qarşılaşması, sevgi və dialoq fonunda mədəniyyətlərarası anlaşma imkanları bədii həllini tapmışdır.
3. Multikultural mühit yalnız müsbət inteqrasiya prosesləri ilə deyil, həm də hibrid identiklik, milli özünüdərk, yadlaşma və fərqli mədəni təsirlərin doğurduğu daxili psixoloji ziddiyyətlər kontekstində qiymətləndirilir.

4. Klassik humanist ənənələrin davamı olaraq, müasir poeziyada da başqa xalqların taleyinə, sosial ədalətsizliyə və ümumbəşəri problemlərə həssas münasibət milli ədəbi prosesin mühüm tərkib hissəsinə çevrilmişdir.

Ədəbiyyat Siyahısı

1. Hüseynova, A. (2021). Klassik ədəbiyyat ənənələrindəki multikulturalizm və tolerantlığın müasir Azərbaycan ədəbiyyatında əksi. *Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası. IV Beynəlxalq elmi konfransın materialları* (s. 82–83). Mütərcim.
2. Mamedkhanova, N. J. (2024). Multikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri. *International Journal of Language and Awareness*, *3*(1), 9–13.
3. Nadirova, G. N. (2024). *Multikulturalizmin müasir ədəbi-bədii dərki* (Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı). Bakı.
4. Mydla, J., Poks, M., & Drong, L. (Eds.). (2017). *Multiculturalism, Multilingualism and the Self: Literature and Culture Studies*. Springer International Publishing